**2023-2024-cü tədris ilində tələbələrin istehsalat təcrübəsinin yekunu barədə**

# HESABAT

2023-2024-cü tədris ilində UNEC rektorunun müvafiq əmrlərinə əsasən bakalavriat səviyyəsi üzrə 3436 tələbə istehsalat təcrübəsinə, magistratura səviyyəsi üzrə 876 magistrant elmi-pedaqoji, 878 magistrant elmi tədqiqat təcrübəsinə göndərilmişdir. İstehsalat təcrübəsinin təşkili məqsədi ilə istehsalat müəssisələri ilə 1692 müqavilə imzalanmışdır. İstehsalat təcrübəsinə UNEC-dən 283 müəllim rəhbərlik etmişdir.

Bakalavriat səviyyəsində istehsalat təcrübəsinə göndərilən tələbələrin 2992 nəfəri əyani, 444 nəfəri isə qiyabi təhsilalma formasında təhsil alan təhsilin sonuncu ili tələbələridir.

Magistratura səviyyəsində elmi-pedaqoji təcrübəyə göndərilən magistrantların 786 nəfəri BMDM, 90 nəfəri isə SABAH Mərkəzinin, o cümlədən elmi tədqiqat təcrübəsinə göndərilmiş magistrantların 788 nəfəri BMDM, 90 nəfəri isə SABAH Mərkəzinin payına düşür.

Qeyd etmək lazımdır ki, bakalavriat səviyyəsində cari tədris ilində ilk dəfə olaraq, tələbələrin təcrübəsi üç istiqamət üzrə təşkil olunmuşdur: 21 kreditlik – "Texniki və texnoloji" ixtisaslar qrupunun "Materiallar mühəndisliyi", "Qida mühəndisliyi", "Ekologiya mühəndisliyi", "Sənaye mühəndisliyi", "Elektrik və elektronika mühəndisliyi", "Maşın mühəndisliyi", "Kommunikasiya sistemləri mühəndisliyi" ixtisasları, "Mədəniyyət və incəsənət" ixtisasları qrupunun "Dizayn" ixtisası, "Təbiət elmləri" ixtisaslar qrupunun "Ekologiya" ixtisası üzrə; 30 kreditlik – "Təbiət elmləri" ixtisaslar qrupunun "Kompüter elmləri" ixtisası, "Texniki və texnoloji" ixtisaslar qrupunun "İnformasiya Texnologiyaları" və "İnformasiya təhlükəsizliyi" ixtisasları, "Səhiyyə, rifah və xidmət" ixtisasları qrupundan "Sosial iş" ixtisası üzrə istehsalat təcrübəsi; 6 kreditlik – "İqtisadiyyat və idarəetmə" ixtisaslar qrupunun "Maliyyə", "Mühasibat", "İqtisadiyyat", "Statistika", "Beynəlxalq ticarət və logistika", "Menecment", "Marketinq", "Dövlət və bələdiyyə idrəetməsi", "Biznesin idarə edilməsi" ixtisasları üzrə istehsalat təcrübəsi/layihə işi. İstehsalat təcrübəsinin yekunları barədə əhatəli hesabatlar əlavədə təqdim olunur.

Məlumat üçün qeyd edim ki, UNEC hər il olduğu kimi 2023-2024-cü tədris ilində də öz tələbələrindən əlavə aşağıda adları qeyd olunan yerli və xarici universitet tələbələri üçün təcrübə bazası qismində istehsalat təcrübəsi təşkil etmişdir:

1. Azərbaycan Dillər Universitetinin "Beynəlxalq münasibətlər və regionşünaslıq" fakültəsi üzrə tədrisin IV ili tələbələri İbrahimov Fuad Vüqar oğlu, Abbasov Xəyal İsi oğlu, Allahverdiyeva Gilə Allahyar qızı, Həsənli Aydan Əkrəm qızı, Kərimova Elmira Həsənağa qızı 16.02.2024-cü il tarixindən 23.05.2024-cü il tarixinədək UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentində istehsalat təcrübəsi təşkil olunmuşdur.

2. "Naxçıvan" Universitetinin UNEC-in tələbələri sırasına mübadilə proqramı əsasında qəbul olunmuş, "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsilin IV ili tələbəsi Vəliyev Məlik Həsən oğlunun16.02.2024-cü il tarixindən 04.07.2024-cü il tarixinədək UNEC Extern tədris mərkəzində istehsalat təcrübəsi təşkil olunmuşdur.

3. Almaniya Federativ Respublikasının Fulda şəhərində yerləşən Fulda University of Applied Sciences (Fulda Tətbiqi Elmlər Universitetinin) "Qida texnologiyası" ixtisası üzrə təhsilin II ili tələbəsi Zahid Zeynalabdinovun 26.02.2024-cü il tarixindən 12.04.2024-cü il tarixinədək UNEC-in 3 saylı tədris binasında fəaliyyət göstərən Aziz Sancar adına "Qida təhlükəsizliyi"

laboratoriyası, "Qida mikrobiologiyası" laboratoriyası, "Qida texnologiyaları" laboratoriyası və "Kompozit materiallar" Elmi-Tədqiqat Mərkəzində istehsalat təcrübəsi təşkil olunmuşdur.

4. Lənkəran Dövlət Universitetinin bakalavriat səviyyəsində "İnformasiya texnologiyaları" ixtisasının qiyabi təhsilalma forması üzrə təhsil alan təhsilin V ili tələbəsi Əsədli Aida Fazil qızının 01.02.2024-cü il tarixindən 06.03.2024-cü il tarixinədək UNEC Extern tədris mərkəzində 5 (beş) həftəlik istehsalat təcrübəsi təşkil olunmuşdur.

5. Azərbaycan Kooperasiya Universitetinin Magistratura şöbəsinin "Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri)" ixtisası üzrə təhsilin II ili magistrantı Həsənova Ellada Dilsuz qızının UNEC-in "Maliyyə və audit" kafedrasında 16 fevral 2024-cü il tarixindən 13 mart 2024-cü il tarixinədək elmi-tədqiqat və 16 mart 2024-cü il tarixindən 11 aprel 2024-cü il tarixinədək elmi-pedaqoji təcrübəsi təşkil olunmuşdur.

6. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kitabxanaçılıq və informasiya" ixtisasının təhsilin IV ili tələbələri Alızadə Jalə Rövşən qızının, Əhədova Rəşidə Qafur qızının, Məmmədova Samirə Famil qızının, Növruzova Rəhiməxanım Bayram qızının, Piriyeva Ayişə Mehman qızının 16.02.2024-cü il tarixindən 05.07.2024-cü il tarixinədək UNEC-in Kitabxana-İnformasiya Mərkəzində istehsalat təcrübəsi təşkil olunmuşdur.

2023-2024-cü tədris ilində Təcrübənin təşkili şöbəsi aşağıdakı tədbirləri təşkil etmişdir:

1. “Norm” ASC-yə 22.12.2023-cü il tarixində 25 nəfər UNEC tələbəsinin sahə gəzintisini;

2.UNEC İmtahan Mərkəzi ilə birlikdə “Norm Yay Təcrübə proqramı” layihəsi çərçivəsində 718 nəfər tələbə üçün 18.05.2023 tarixində, saat 09:00 – dan 13:00-a kimi 4 saatlıq imtahan prossesini;

3.UNEC İmtahan Mərkəzi ilə birlikdə Bank Respublikada istehsalat təcrübəsi keçmək istəyən 132 nəfər UNEC tələbəsi üçün 28.12.2023-cü il tarixində test imtahanı;

4.AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Yay Təcrübə Proqramı" ilə bağlı DVX-nin Tədris Mərkəzinin təlimçisi Tural Abbasovun təqdimatında "Vergi məsuliyyəti nədir?" mövzusunda 09.04.2024-cü il və 17.04.2024-cü il tarixində təlimlər təşkil edilmişdir.

5.UNEC Rəqəmsal texnologiyalar departamentinin Tədbirlərin texniki təminatı bölməsinin dəstəyi ilə Paşa Holdinq şirkətlər qrupunun əməkdaşlarının "Əlaçı" təqaüd proqramının qalibləri ilə görüşləri yüksək səviyyədə təşkil edilmiş, hər görüşdən sonra şirkətdən təşəkkür maili daxil olmuşdur. Məlumat üçün qeyd edək ki, ümumilikdə nəzərdə tutulan görüşlərdən üçü mart ayında (03.03.2024, 17.03.2024 və 31.03.2024), biri aprel ayında (21.04.2024), üçü may ayında (05.05.2024, 19.05.2024, 26.05.2024) keçirilmişdir.

6. Karyera Mərkəzinin əməkdaşları ilə birlikdə 16.02.2024-cü il tarixində “Azərsun” Holdinqdə istehsalat təcrübəsinin başlanması ilə əlaqədar təşkil olunmuş “Xoş gəldin” tədbirində iştirak etmişik.

7.“Norm” ASC-nin istehsalat təcrübəsinin yekunu ilə əlaqədər 30.05.2024-cü il tarixində təşkil etdiyi tədbirdə iştirak etmişik.

8.“İqtisadiyyat və idarəetmə” ixtisaslar qrupuna daxil olan ixtisaslarda təhsil alan təhsilin sonuncu ili tələbələri, həmçinin onlara rəhbərlik edəcək profesor-müəllim heyəti, ixtisas kafedralarında təcrübəyə məsul şəxslər, ixtisas rəhbərləri və tyutorların iştirakı ilə dəfələrlə real və onlayn görüşlər keçirilmiş, tələbələrin təcrübənin növü ilə bağlı elektron seçimi təşkil edilmiş, tələbə kabinetlərinə, eyni zamanda tərəfdaş müəssisələrin elektron poçt ünvanlarına bütün ixtisaslar üzrə

yenilənmiş təcrübə proqramları, təcrübə qaydalarını özündə ehtiva edən "Təcrübəçi tələbənin məlumat kitabçası", "Tərəfdaş müəssisənin məlumat kitabçası", layihə işinin yazılması üçün nümunə, təcrübə arayışı və müqavilə nümunəsi göndərilmişdir.

9.İxtisas qruplarının təcrübə kreditlərinə uyğun gündəliklər yenidən işlənmiş və nəşri təşkil olunmuşdur.

10. Müxtəlif şirkətlərdən daxil olan 36 təcrübə və vakansiya elanı UNEC-in saytında və tələbə kabinetlərində yerləşdirilməsi təmin edilmişdir.

11. 1692 ədəd müqavilə elektronlaşdırılmışdır.

12. İstehsalat təcrübəsinin təşkili ilə əlaqədar 60 quruma UNEC rəhbərliyinin adından "Təşəbbüs məktubları" hazırlanaraq, göndərilmişdir.

13. İstehsalat təcrübəsinin təşkilində universitetimizə dəstək olmuş 59 təcrübə bazasına UNEC rəhbərliyinin təşəkkür məktubu göndərilmiş, 25 vəzifəli şəxs "Təşəkkürnamə" ilə təltif olunmuşdur.

14. Cari tədris ilindən ilk dəfə olaraq, təcrübə arayışlarının Bir pəncərə sistemi ilə birlikdə təqdim olunmasına başlanılmış, onlarla tələbəyə təcrübə arayışları təqdim olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ UNEC PUBLİK HÜQUQİ ŞƏXS TƏCRÜBƏNİN TƏŞKİLİ ŞÖBƏSİ

**UNEC Təcrübənin təşkili şöbəsinin müdiri f.ü.f.d. Leyla Nəzirzadə**